MÜZAHİM İSMAYILZADƏ

# QARA İŞIQ

Bakı – 2014

*Müzahim İsmayılzadə «Qara işıq»*
*Bakı, «MBM», 2014, 112 səh.*

*«Qara işıq» kitabına müəllifin son illərdə yazdığı şeirlər daxil edilmişdir. Yaradıcılığa şeirlə başlayan Müzahim İsmayılzadə bir neçə nəsr əsərləri ilə oxucuların görüşünə gəlmişdi. Bu kitabda toplanan şeirlər bir növ müəllifin özünə qayıdışdır.*

*İyirmi birinci əsr insanının dünyagörüşü, mürəkkəb duyğuları, xarakterləri, sevgi dolu hissləri bu şeirlərin əsas mövzusunu təşkil edir.*

*ISBN 978-9952-29-078-3*

*© M.İsmayılzadə*
*Bakı, «MBM»*

# OXUMU ƏYƏN ƏYDİ

***Qapımı döyənim bilir,***
***Ətimi yeyənim bilir,***
***Oxumu əyənim bilir,***
***Oxum düz getmir, düz getmir.***

***Ömrün qışı, yazıdımı?***
***Qismət payı, yazıdımı?***
***Kim oğlu, kim qızıdımı?***
***Oxum düz getmir, düz getmir.***

***Yox üstümə gəlir mənim,***
***Tox tüstümə gəlir mənim.***
***Ov üstümə gəlir mənim,***
***Oxum düz getmir, düz getmir.***

***Mən ovçuyam, fənd qurardım,***
***Bənddə, bərədə durardım.***
***Quşu gözündən vurardım.***
***Oxum düz getmir, düz getmir.***

***Bostanımı əkən gərək,***
***Yüküm ağır, çəkən gərək,***
***Oxuma əl çəkən gərək,***
***Oxum düz getsin, düz getsin.***

## İNSAN MƏNZƏRƏLƏRİ

*Nazim Hikmətə, həm də dostum*
*Əflatun Amaşova*

Payız küləkləri əsir
55 yaşımın üstünə,
Havanın hərarəti
yaşımdan azca az –
Torpaq, daş ayaqlarımı yandırır.
Yaxşı ki, həyətdə tut ağacı var.
Tut ağacının meyvəsindən çox
yarpaqları  gözəl,
budaqları gözəl,
O boyda Günəşin zərrələrini
özündə tutub saxlayır,
kölgəsində rahat nəfəs almağa,
bir az da xəyala dalmağa.

Payız küləkləri əsir
55 yaşımın üstünə,
başımın  tüstüsünə,
günortanın istisinə,
ayağım çidarlı,
əlim qandallı,
tərpənə bilmirəm
nə sağa, nə sola.
İrəliyə, geriyə!
Məni oyuna buraxsınlar,
əl çəkim ilan kimi sürünməkdən –
bəlkə onda kiriyəm!
Eheyy!

Mənşəyi  məchullar,
havanı, torpağı, odu, suyu
kimyəvi  maddələrlə zəhərləyən
məhlullar,
məni oyuna buraxın!
Mən güclüyəm! Güclüyəm!
Dağlar, dalğalar qədər!

Payız küləkləri əsir
55 yaşımın üstünə,
bir «dost»umla üzbəüzəm:
söhbət arası xahiş…
Tülkü sifətinə təbəssüm qonur.
Ay Allah!
Tülküdü, əsl tülküdü.
İnsanın əcdadı təkcə meymun döy!
İnsanın əcdadı həm də tülküdü!
«-Belədi! Belədi! Belədi qardaş!
Gərək biri ölsün ki!..»
Mənə dərs də verdi, məsləhətlər də,
Nə bilim, səbirdən, işdən-gücdən də.
Özü  bezdi axır bu söhbətlərdən
Ünvan da istədi məndən gedəndə
«-…qoy bunlar məndə olsun ki…»
Guya mənə zəng edəcək?!
Guya məni çağıracaq!
Kimsə öləcək sonra!
Kimsə ölməsin heç!
Guya! Guya!
Röya! Röya!..

Payız küləkləri əsir
55 yaşımın üstünə
Tribunada
on minlərlə azarkeşin içindəyəm,
mənim əvəzimə oynayanların
oyununa baxıram.
Oyun! Oyun! Oyun!
Nə oyun! Biabırçılıq!
Qapımızın toru
dəqiqəbaşı silkələnir
Dəqiqəbaşı oyun
mərkəzdən başlayır.
Azarkeşlərin səbri çatmır,
meydançanı, oyunçuları
daşlayır!
Uğultulu qışqırtı,
beşmərtəbəli söyüşlər…
– «Oyunçular! Odunçular!
İstefa! İstefa!»
Mən içimdə hayqırıram:
«-Məni oyuna buraxın!»

Payız küləkləri əsir
55 yaşımın üstünə
avtobusdayam, ayaq üstündə
oturmağa boş yer yox.
Növbəti dayanacaqda
ixtiyar bir qoca –
döşü orden-medallı

avtobusa mindi əlində əsa,
tələsə-tələsə
boş yer axtardı oturmağa
qarşısında cavan oğlan
əlində iri şüşəli telefon,
ağ xətləri qulağında –
qımıldanmır.
Qoca isə ayaq üstə dayanammır.
Gözünə döndüyüm bir əl
tutub sərçə kimi peysərindən
qaldırır,
sonra onu qandırır…

Payız küləkləri əsir
Yarpaqların yaşına.
Yarpaqların yaşı neçədi?
Yarpaqların yaşılı var, sarısı var–
ömür də eləcə.
Bax, beləcə,
payız küləkləri
saralmış yarpaqların qənimi.
saralmış ömrün qənimi.
İndi bax,
55 1aşda rəngin necədi?

## BU QIZIN GÖZÜNDƏN MƏHƏBBƏT YAĞIR

Üz-üzə, göz-gözə dayanmışıq biz,
Bu qızın gözündən məhəbbət yağır.
Lalənin rənginə boyanmışıq biz,
Bu qızın gözündən məhəbbət yağır.

Qənirsiz gözəldi, qənirsiz gözəl,
İlahi hüsnünə əl çəkibdi, əl.
Havalı halıyla gəl söyləyir, gəl,
Bu qızın gözündən məhəbbət yağır.

Xəyalı göylərdə qol-qanad açır,
Günəşdi, ömrümə şəfəqlər saçır.
Baxmırr ki, qocayam, ağarıb saçım,
Bu qızın gözündən məhəbbət yağır.

Qalmayıb taqəti, yoxdu dözümü,
Susubdu qarşımda, bilmir sözünü.
Qorxmur ki…
Alova atsın özünü
Bu qızın gözündən məhəbbət yağır.

## SABAH, SONRAKI, DAHA SONRAKI SABAH

Bəs sən nə bilirdin ki?!
Alaqaranlıqdan ulduzlar sayrışana qədər
bir an nəfəs dərmədən,
beşcə dəqiqə gözümün acısını almadan

işdə-gücdə.
sabah,
sonrakı sabah,
ondan sonrakı sabah – nə vaxtsa
arzuların çin olacaq yuxu kimi,
Ümidlər! Ümidlər! Ümidlər!
Hansı bir nağılda  qızıl balıq
barmağına  qızıl üzük taxacaq!
İstə üzükdən!
İstə balıqdan!
Dünyanın ən varlı,
ən bəxtəvər insanı…

Bəs sən nə bilirdin ki?!
dünyaya  gələr-gəlməz,
gözlərini açar-açmaz
hönkürtü ilə ağladın –
hamı kimi.
Ağlamağı ananın  qarnındamı
öyrənmişdin?

Ananın qarnında
ağlamaq  niyə öyrənirdin?!
Gülmək öyrənsəydin?!
Şaqqanaq çəkib gülmək.
Gülməkdən ölmək!
Ağlamaqdan ölməkdənsə,
gülməkdən öləydin!

Bəs sən nə bilirdin ki?!
Dabanların qabar bağlayıb

əllərin kimi,
alnının qırışları
illərin kimi,
Arzular, istəklər
güllərin kimi.
Tikanlı!
Dünya bir sərv ağacıı –
budaqları, yarpaqları tikanlı!

Bəs sən nə bilirdin ki?!
Sabah,
sonrakı sabah,
ondan sonrakı sabah
üzünə güləcək,
ömrünə təzə bahar gələcək!
Dünənini yaşamısan. Görmüsən,
Bugününü yaşayırsan, görürsən
Sabahı nə bilmək olur?
Onu bilirsənmi
Sabah,
sonrakı sabah,
ondan sonrakı sabah – nə vaxtsa
ölüm günün gələcək?
Onumu gözləyirsən?

Bəs sən nə bilirdin ki?!
Dünya elə sən gördüyünmüş!
Ömrünü-gününü bu torpağa
sərdiyinmiş
Ağrılara, acılara sinə gərdiyinmiş…

Sabahlar-açılmamış bağlı bir boğça,
Ömür – sadə olduğu qədər mürəkkəb,
Çox mürəkkəb…
Sənsə elə bilirdin ki,
gözəl, gözəl, gözəldir həyat!

## ARAZ – VƏTƏNDİ, VƏTƏN

*İki qardaş dostuma – Abbas müəllimin əziz xatirəsinə, qələm dostum Sahib Abdullayevə*

Gözlərimin ağı da qapqaraydı,
qapqara,
ağırlığını saxlaya bilməyib,
dərdindən ağlaya bilməyib
torpağa çökən bulud kimi
qanım da eləcə-
it qanından betər.
Üzü Naxçıvana gedirəm,
Naxçıvana,
Payı-piyada.
Yüküm bir torba dərddi,
Elə ağırdı ki!
Ora məni çağırdı ki,
Arazın suyundan bir ovuc içim!
Gömrük nöqtəsində ağrıdı içim.
Bir saqqallı fars
beş saat  yubatdı məni.
Beş saat dodaqlarım qaysaq bağladı
Susuzluqdan!
Saqqallı əbləh gah papiros sümürməyə

çıxdı,
gah hansı bir  xanımlasa
eşq söhbətinə başladı.
Sonra bir stəkan çay,
Sonra televizora baxdı…
Süni! Süni! Süni!
Gözümün içinə baxmırdı –
kompüterə virus düşüb guya!?
«-Virus sənin içindədi, ayə!...»

Gözlərimin ağı da qapqaraydı
qapqara!
Bu da Xudafərin körpüsü!
Zaman daş-qalaq edib
Neçə əsrdi ki, bu başından
o başına gedib
qovuşa bilmirik həsrətinə
Yarı yolda qalırıq!
Yarımçıq, Xudafərin gölü kimi!
Ağladım!
Yalan niyə deyim, ağladım.
Kim deyir ki, kişi ağlamaz!
Kişi də adam  döymü?
Kişinin ürəyi daşdımı?
Göz yaşlarım çatmadı Xudafərinə
Araz o gölü doldura bilmirsə,
Göy üzü o gölü doldura bilmirsə,
mənim  göz yaşlarım nədi ki?!
o uçuq körpü!
O yarımçıq göl!

Yıxıl, ürəyim, yıxıl, elə orda öl!
Dərd hələ qabaqdadı.

Gözlərimin ağı da qapqaraydı,
qapqara!
Bu da Araz çayı!
Axır!
O da mənim kimi!
Mənim kimim var?!
Onun kimi?!
(Arxalı köpək qurd basar!)
Qapqara göz yaşımla,
it  qanımdan da betər qanımla
gedirik!
Qəribədir,
bu  günümüzə də şükür edirik!
Sən şükürə bax!
Dünən Arazın o tayından
bu tayına baxırdıq,
indi əksinə!
Bax, dünən, gəzdiyin doğma yerlərə –
Cəbrayıla! Zəngilana! Qubadlıya!
Bozdağın ətəyində
Arazın ləpədöyənində
dəmiryol xətləri sökük-sökük,
Xudafərin kimi
Taxta oğruları
dəmir oğruları,
Qumlaq kəndinin evlərini də
soyundurublar,

Torpaq oğruları daşları,
torpaqları soyuqdan dondurublar.
Dünən heç olmasa
«Bakı-İrəvan» qatarı varıydı,
həsrətimizi  o baş-bu baş
daşıyırdı.
Birtəhər taleyimizlə barışıb
yaşayırdıq!
O da yoxdu!
Dərd o qədər çoxdu.
Arazın qırağında
doyunca dayanmaq olmaz!
Taxtada qara hərflərlə yazılıb.
Yüz addım o yanda
gavur snayperi!
Gözünün qarasını
gözünün qorasını,
ürəyinin yarasını
Araza tökəmmə!
Başını salla, öt, get!

Gözlərimin ağı da qapqaraydı,
qapqara!
Araz mənim göz yaşımdı,
mən bu çaydan bircə ovuc
içmirəmsə,
o yanVətən,
bu yan Vətən
mən vətənə  keçmirəmsə,
axı, niyə yaşayırıq?!

Ömür boyu həsrət yükü daşıyırıq?!
Arazın suları tikanlı-məftilli,
O yandakı qəlbi dağlar,
bu yandakı qəlbi dağlar,
saç ağardıb, fikirli,
o yan Vətən,
bu yan Vətən!
iki yolun ayrıcında qalmısan,
Hara, hara, hara gedəsən?!

*Parsabad, 2013*

## HİKMƏTL ADAMLAR, NURLU ADAMLAR

*Atamın sevimli şagirdi, mənim sevimli müəllimim filosof Əziz Bayramovun xatirəsinə*

Özü də adı kimi əziz olan Əziz müəllim,
Vardı  günlər, o günlər ki,
Günəş Boz dağdan boylananda
birinci sizin pəncərəni göyəcləyərdi.
O Günəşin qızılı, al şəfəqləri
Sənin üz-gözünü
qızılı, al bəzəyərdi.
Gözlərin də eləcə –
qızılı, al  təbəssümlü,
yerişin iti,
boy-buxunun şax.
Qəlbində sabahlara inam!

Özü də adı kimi əziz olan Əziz müəllim,
Vardı günlər, o günlər ki,
Günəş əlindən tutub səninlə
yol gedirdi – cangüdən Günəş
səni qoruyurdu
borandan,
tufandan,
içinin qurdunu dərman təmizləməyən
soğulcan insanlardan…
daha nələrdən, kimlərdən…

Vardı günlər, o günlər ki,
ömür açılmayan,
dolaşıq yumaq
Açdıqca düyünlər çoxalır bir-bir,
Ağardı saçların
su içmək qədər
asan görünən
işlərdən,
Heç ummadın
Topdağıtmaz kəlməylə
sirli-sehrli qapıları açan xahişlərdən…
Sən özün həm sərkərdə,
Həm döyüşçü,
Həm atlı,
Həm piyada!
Özün keçdin tilsimlərdən
Axı, Günəş tutmuşdu əlindən!

Özü də adı kimi əziz olan Əziz müəllim,
Vardı günlər, o günlər ki,

bu şəhərdə
min bir fel-fənddən keçdin,
sevincdən çox dərddən keçdin,
sel qoparan bənddən keçdin,
böyüdüyün kənddən keçdin.
Keçdin axır!
İti yerişinlə,
şax boy-buxununla,
təbəssümlü gülüşünlə,
qızılı, al sifətinlə.
Günəş tutmuşdu əlindən!
Günəş sənə mehr salmışdı!
Sən Günəşin dostu idin!

II

Üzlərinə, gözlərinə öyrəşdiyim,
Üç gündən bir,
Beş gündən bir
Üzbəüz əyləşdiyim,
Dünəndən, bu gündən – dünyadan
Deyişdiyim
Müqəddəs insanlar, gözəl insanlar,
Sizdən ötrü qəribsədim.
Siz indi hardasınız?!
Mən bir durna dəsində
Sizləri axtarıram.

Hikmətli adamlar, nurlu adamlar,
Möcüzə adamlar, sirli adamlar,

Sözü-söhbətləri dürlü adamlar
Təkbaşına düşünürəm,
Dəli kimi
Öz-özümə danışıram
Sizdən ötrü qəribsədim,
Siz indi hardasınız?!
Mən bir durna dəsində
Sizləri axtarıram.

Həm nurani, ağıllı,
Şirin-şəkər, noğullu,
Min dastanlı, nağıllı,
Telli sazın avazında
Danışanlar, deyənlər –
Sizdən ötrü qəribsədim
Siz indi hardasınız?!

Mən bir durna dəsində
Sizi tapmaq həvəsində.

Mənə inam, inad verin,
Mənə ümid, qanad verin,
Günəşli bir həyat verin-
Bu işıqlı, gen dünyada,
Qərib olmaq nə deməkdi?!
Milyonların qəlbi olmaq nə deməkdi?!
Sizdən ötrü qəribsədim.
Siz indi hardasınız?!
Mən bir durna dəsində
Sizləri axtarıram…

Üzlərinə, gözlərinə öyrəşdiyim,
Hikmətli adamlar, nurlu adamlar,
Müqəddəs adamlar, sirli adamlar…

## ƏMİN OL

Səndən alacağam intiqamımı,
Bu gün olmasa da, sabah…
Əmin ol.
Canını götürüb hara qaçasan?
Lap bir okeanda adsız gəmi ol.

## NƏLƏR YATIR İÇİMDƏ

Nələr yatır içimizdə?
Nələr, nələr?
Bilsən əgər?

Arıq,
Çəlimsiz,
Yöndəmsiz,
Cırtdan boylu birisinin
Kölgəsindən böyük razılığı…

Boylu-buxunlu,
Gözəl,
Bacarıqlı birisinin
Sadəliyi, insanlığı…

## TƏZADLAR

Ordan-burdan
Bircə manat alanın.
Yuxusu gözündən qaçır,
Əlləri əsir.

Ordan-burdan
Milyonlar qazananın
Qılıncı dağı da
Daşı da kəsir…

## MƏN YERDƏYƏM, SƏN GÖYDƏ

Boyum ucadır boyundan,
Soyadım da soyadından.
Baş açmıram bu oyundan,
Mən yerdəyəm, sən göydəsən.

Ömrüm ötdü boran-qarla,
Səninkisə dövlət, varla.
Danışsam da ulduzlarla,
Mən yerdəyəm, sən göydəsən.

Mən həqiqət, doğruyam ki,
Sən fırıldaq, oğrusan ki…
Bu torpağın oğluyam ki,
Mən yerdəyəm, sən göydəsən.

## QURTARMIR

Mənim göz yaşlarım sənin ömrünə,
Leysan yağışlardı, yağır, qurtarmır.
Mənim göz yaşlarım sənin ömrünə,
Coşqun dağ çayıdı, axır, qurtarmır.

Təsəlli tapmıram daha umuddan,
Kim oldu uduzan?
Kim oldu udan?
Dünyan qara geyib qara buluddan,
Şimşəklər oynayır, çaxır, qurtarmır.

Boynuna ağ libas salıb eləcə,
Hüsnünə mat-mətəl qalıb eləcə,
Əllərim əlində qalıb eləcə,
Nişan üzüyünü taxır, qurtarmır.

Bir nakam məhəbbət bəsləyirəm mən,
Dağları, daşları səsləyirəm mən,
Səni günbatanda gözləyirəm mən,
Gözlərim yollara baxır, qurtarmır.

*15.06.2013*

## ƏSLİNDƏ

Əslində
bir qara qəpiyə dəyməyən vücuduna,
(elə yalandan göylərə qaldırdığın
adına, soyadına da)
ən hörmətsiz sözlər də

deyiləsi döy!
Gərək hər şey bir-birinə
yaraşsın, axı!

Əslində
cod sifətini hər gün
Avropanın Asiyanın,
hətta Amerikanın
kimyəvi maddələri,
ətirləri ilə örtüb
qoxusunu dəyişsən də,
qırışlar görünür çatın altından!
Ətir qoxusunu itirir.
Heç nə, heç nə
söyüləsi döy!
Gərək hər şey bir-birinə
yaraşsın, axı!

Əslində
hayla-küylə gələnlərin
hayla-küylə getmələri var!
Nə vaxtsa!
Həqiqəti deyənlər
döyüləsi döy!
Gərək hər şey bir-birinə
yaraşsın, axı!

Əslində
milçəkdən fil düzəldib
kiminsə gözünə soxmaq

kimisə kor qayırmaq,
öyüləsi döy!
Gərək hər şey bir-birinə
yaraşsın, axı!

## GÖZ YAŞLARIM

Göz yaşlarım
damcı-damcı toplanıb
üç aydan,
beş aydan bir
üstünə tökülür.
Mənim göz yaşlarım
yaz yağışı döy!
Heç payız yağışı da! -
islatsın səni
Mənim göz yaşlarım
oddu, alovdu-
Üç aydan,
beş aydan bir
od-alova atsın səni!

*19.06.2013*

## ÜRƏYİMİ OXUDUN

Ürəyimi
kitab kimi açdım sənə!
Nöqtəbənöqtə oxudun,
əzbərlədin.

Özünü
bağlı sandıq kimi
gizlətdin!

Sonra…
Əzbərlədiklərini
oxuya-oxuya
yol getin
üzü günbatana…

Mən
sənə  kiçik bir nöqtə,
sən isə mənimçün
yox oldun!

## İLİN ƏN QISA GECƏSİ

Bu da ilin ən qısa gecəsi.
Gecələrin neçəsi
uzundu bu gecədən…

Bu da ilin ən qısa gecəsi,
Gecələrin incəsi
ılıq, ürək oxşayan.

Bu da ilin ən qısa gecəsi,
gecələrin  incisi
hamıdan birincisi…

Bu da ilin ən qısa gecəsi,
gecələrin necəsi.
yuxu gözümdən tökülür –
yuxum gözümdə qalıb
gözüm yumulmur, yumulmur.

## YATIR-YATIRSAN

Boynun içindədir, yolda-izdə sən,
Çiynini, boynunu atır-atırsan.
Elə danışırsan…
Elə üzdə sən
Suda boğulursan, batır-batırsan.

Gözün ayağının altını görmür
Əlində daş-kəsək atanı görmür
Havayı yeyəni, yatanı görmür,
Uçursan haraya?
Çatır-çatırsan?!

Nəfsin necə iti? Yummur gözünü,
Xallı aslan kimi sayıb özünü.
Soyub karvanların qumaş, bezini,
On qat bahasına satır-satırsan.

Gücünü gücsüzə öyəsisən ki,
Haqqı nahaq ilə söyəsisən ki...
Nə dinin, nə donun yiyəsisən ki,
Ətrafın söyləyər: qatır, qatırsan.

Hələ dörd yanında qaranlıq, sükut,
Müftə tikələri rahatlıqla ud.
Kimin kölgəsinə uzanıb sakit,
Elə mışıl-mışıl yatır-yatırsan?!

## BİR QOCA QARI

Bir uca yaylaqda bir köhnə daxma,
Bu köhnə daxmada bir qoca qarı.
Tək-tənha hərlənir həyət-bacada –
Dörd yana dağıdıb uşaqlarını.

Qocası tək qoyub beş il irəli,
Qocasız gecəsi-gündüzü zəhər.
Ayağı torpaqda,
göydədir əli-
Diri gözlə açır gələn səhəri.

Dolanır evinin dörd bir yanını,
Başını iş-güclə qatır birtəhər.
Yaylıq almasını yolan uşağın,
Dalınca bir çubuq atır birtəhər.

Sifəti, əlləri qırış-qırışdı,
Uzun saçlarını güzgüsüz hörür.
Hər axşam,
hər səhər yır-yığış edib,
Bir uzaq səfərə hazırlıq görür.

Ocağı tüstüsüz qalmır heç vədə,
Köz-közə calanır quru odundan.
Qurutdu xəngəli unutmur hərdən,
Çayı da dəmləyir kəklikotundan.

Donnuğu torbada,
torba qoynunda,
Qonağı-qarası
Tez-tez gəlirlər.
Yüz yol deyiləni ilk dəfə kimi
Təzdən yada salıb, təzdən gülürlər.

Gileyi-güzarı yox imiş onun,
Əsaya söykənir, gözü yol çəkir.
Sandığın yanında oturur çox vaxt,
O nəyi axtarır?
Kimi gözləyir?

Uca dağ başında bir köhnə daxma,
Bu köhnə daxmada qoca bir qarı.
Daha öz taxtından qırağa çıxmaz,
Gözləyər, nə vaxtsa gələn baharı.

## SƏNİ YENƏ SEVİRƏM

Səndən nə gizlədim,
göz yaşımı axıtdın,
saçlarımı ağartdın,
ürəyimi ağrıtdın –
dinmədim.

Səndən nə gizlədim,
göz yaşımı axıtmağın,
saçlarımı ağartmağın
ürəyimi ağrıtmağın
Necə xoş imiş mənə!

Səndən nə gizlədim,
göz yaşlarım qurusa da,
saçlarım ağarsa da,
ürəyim ağrısa da -
səni sevirəm yenə!
səni sevirəm yenə!

## YAXŞI ADAMLAR

Yaxşı adamların,
göy üzünə düşür şəkilləri
yaxşı adamların yeri
göy üzündəymiş…
Göy üzü
özünə çəkirmiş yaxşıları,
göy üzü özünə çəkirmiş
yaxşılıqları.

Göy üzü göy güzgüdü,
bir əli suda,
biri quruda
Üzünə bir daş atsan
Çilik-çilik qırılar…

Yaxşı adamların şəkilləri
göy üzündə qatar-qatar.
Yaxşı adamların şəkilləri
Lap gedib Günəşə çatar…

## ƏLİ BÖYÜKLƏRİN ƏTƏYİNDƏDİ

Gözündə intiqam, ürəyində kin,
Guya səmimidi, gülərüz, lakin …
Şirinlik sözünü elə bilir ki,
Arı yuvasının pətəyindədi.

Adı dostlarının qınaqlarında,
Yalanlar dolanır dodaqlarında,
Yaltaqlıq tökülür yanaqlarından,
Əli böyüklərin ətəyindədi.

Danışır nə gəldi…
Savad azdı, az,
Məşədi İbaddı, başı dazdı, daz,
Guya nəkarədi? Özü qazdı, qaz,
Özü də yonulmuş, ütüyündəndi.

Dəyişdi ruzigar, zamana döndü,
Üstünə çilənən işıqlar söndü.
İlıq nəvazişlər, eh, nələr dondu –
Başı ədalətin kötüyündədi.

## İTİRDİM İTİRDİKLƏRİMİ

Qazandıqlarımın hesabına
itirdim itirdiklərimi.
qazandıqca itirdim,
itirdikcə
qazanmadım.

Qazandıqlarımın hesabına
itirdim itirdiklərimi,
qazandıqlarımı
özüm qazandım,
itirdiklərimi
əlimdən aldılar.

Qazandıqlarımın hesabına
itirdim itirdiklərimi
itirdiklərimin hesabına
qazananlardan olmadım.

Qazandıqlarım
elə itirdiklərim oldu.

## ŞƏHƏRƏ SIĞMAYAN QOCA

Yara düşüb yarasına,
Bumbuz olub çuxasında.
Bir özgənin yuvasında,
Yola-izə çıxmır qoca.

Anır ömrün hər anını,
İtiribdi dörd yanını.
Odlandırıb qəlyanını,
Pəncərədən baxmır qoca.

Tüstülənmir o yurd, ocaq,
Xatirələr qucaq-qucaq.
Gözü zəifləyib, ancaq,
Eynəyini taxmır qoca.

Ürəyində qüssə-qəhər,
Hamı yerləşib birtəhər.
Nə boydadı görən şəhər?!
Bu şəhərə sığmır qoca.

Yoxdu Buzbulağın səsi,
Dağ çayları, şəlaləsi.
Burda elə külək əsir…
Şimşək olub çaxmır qoca.

Dağları yox,
duman gəlməz,
Bar-bərəkət umar
gəlməz.
Ümidinə güman gəlməz,
Leysan yağış yağmır qoca.

İlin bahar, yay fəslidi,
Biçənəyi…
basılıdı…

Kərəntisi asılıdı,
Ot-alafı yığmır qoca.

Pərən düşdü qatarları,
Hissə-hissə, yarı-yarı.
Tənbəkini sorur
barı-
Öz yurduna çatmır qoca…

*Quzanlı, 2013*

## ƏLLƏRİM PAYIZ OLDU

Üzü qışa doğru,
isti yuvasında qalan
sonuncu yarpaq
əlimin üstünə düşdü.
Sapsarı,
bir az da qaralmış yarpaqdan
əllərim payız oldu.

Əllərim payız oldu
başım ağappaqdı qışın qarında
Ötən yayın isti payı az oldu
Dondurdu göydəki ulduzları da.

Əllərim payız oldu
Gecikmiş durna dəsinin
donmuş, qəmli,
qərib səsindən,
dəstədən ayrı düşüb

tənha qalan xəstənin
qürbətdəki həsrət kölgəsindən.

## GÜNƏŞ GÖZÜMDƏ YATIR

Günəş döyür gözümü,
Kirpiklərim yuxulu.
Yatmağa halı olmaz,
Hava çiçək qoxulu.

Bu qışın soyuğunda,
Bu günəşin istisi
Yaydan gizlənib qalıb,
Yerə çöküb tüstüsü.

Yenə də yalan, yalan,
Sinoptik məlumatı.
Buludlardan gizlənən,
Günəş gözümdə yatır.

## SƏN MƏNİM QƏDRİMİ SONRA BİLƏRSƏN

Sən mənim qədrimi sonra bilərsən,
Sonra biləndə də gec olur, axı?!
Təkcə xəyallardı, yarı bölərsən
Xəyallar tez ötür, heç olur, axı?!

Sən mənim qədrimi sonra bilərsən,
Sonra peşmançılıq…

Nə faydası var?!
Hərdən dəli kimi elə gülərsən,
Hər vaxtın, hər anın öz qaydası var.

Hərdən də üzünə yağışlar yağar,
Qələmin qarası, ağı quruyar.
Dörd yol ayrıcında yolların azar,
Solunu sel yuyar, sağın quruyar.

Tənhasan, təklikdən bezmisən daha,
Üstünə bir ucdan kölgələr düşər.
Bəlkə də qayıtdı…
Ümidin baha,
Bəxtinə bəlkələr, bəlkələr düşər.

Sən mənim qədrimi sonra bilərsən,
Sonra biləndə də gec olur, axı?!

## VAR İMİŞ

Səni çox gec tanımışam,
Bağışla,
Yerli-yersiz dolmağın da var imiş.
Bu qəmzəylə,
bu ədayla,
baxışla
Min sifətli olmağın da var imiş.

Pay umansan kəsdiyin duz-çörəkdən,
Torpaq, hava…

Tən bölünsün, yarı, tən,
Dost nəçidir?
Elə dostu ürəkdən
İlan kimi çalmağın da var imiş.

Xəyalında laçın könlün ucalıb,
Həm karvandan,
həm sarvandan bac alıb.
Yumurtadan yun qırxmağı bacarıb
Neçə qazı yolmağın da var imiş.

Dünya qopsa, tərpətməzsən tükünü,
Qurdu-quşu yuvasından hürküdüb.
Gör necədir? Şələquyruq tülkünü,
Tələsinə salmağın da var imiş.

Dördnala çapırsan hələ atını,
Gözün görmür ayağının altını.
Xıncımlayıb göy çəmənin otunu,
Bilirsənmi, solmağın da var imiş.

*05-06.07.2013*

## TƏZƏ AY DOĞUBDU

Təzə Ay doğubdu.
dizlərim
pambıq daşların üstündə,
əllərim
alnımın qırışlarını oxşadı,
gözlərim
bir anlıq yumuldu,
yanaqlarına

sığal çəkdi
dilimdə
əzbərdən bildiyim şeirin
sözləri.
Mən də
Ay kimi təzələndim.

Təzə Ay doğubdu
içi bomboz buludların
kölgəsi gizlədib səni
Qartal xislətinlə
Dimdiklərin qırmızı qan,
Caynaqlarında
Şirin sanballı ovundan
qalmış
sümük
Aya pənah aparırsan,
gizlənirsən kölgəsində.

Düşürəm kölgənin qarasına,
Baxıram
intiqamla döyünən ürəyimin
yarasına.

Bulaq üstündə
səni gözləyirəm axır,
Ayın kölgəsi
ora düşür, axı…

Təzə Ay doğubdu,
Daha əllərimi açıb
onu qucaqlamaq istəyirəm.

## YARIMÇIQ ŞEİR

Baxan olsa xəcalətdən utanar,
Dəli kimi öz-özünə əl çalar.
Sənə çəkib bu misalı atalar,
Görməmişin oğlu oldu
Neylədi?!

Gündə yüz yol dəyiş dəbi,
qürrələn,
qaldır zilə soyuq təbi, qürrələn,
qanammadın elmi, cəbri,
qürrələn,
Görməmişin oğlu oldu
neylədi?..

## SƏNƏ ŞEİR YAZMAQ İSTƏDİM

Sənə şeir yazmaq istədim,
Nekroloqsayağı, hiddətsayağı,
Nəsihətsayağı, heyrətsayağı,
Vəsiyyətsayağı, hikmətsayağı,
Sədaqətsayağı, qeyrətsayağı,
Cəsarətsayağı, qüdrətsayağı,
Özgə nə isə sayağı…

Sənə şeir yazmaq istədim,
buludların göz yaşından
göylərin qıyğacı baxışından.

Sənə şeir yazmaq istədim
hiylədən, fırıldaqdan, kələkdən,
səmtini tez-tez dəyişən
küləkdən,
keçmişdən, gələcəkdən,
itirilən duz-çörəkdən,
Eh, daha nələrdən, nələrdən…

Sənə şeir yazmaq istədim
Özümü unutdum.

## ÜRƏYİMDƏ

Xəyalımda min bir güman,
Gümanım da oldu talan.
Kim kimədir? Hiylə, yalan,
Paralanmış ürəyimdə.

Gəzər eli sirr-soraqlar,
Hədəf seçər küt yaraqlar.
Topalanar ağ varaqlar
Qaralanmış ürəyimdə.

Nəğmə sənin, oxu pəsdən,
Nədən oldu? Belə süstsən.
Araz axır sinəm üstdən,
Yaralanmış ürəyimdə.

*İran-Culfa*
*18.07.13*

## YAZI MASAM

Mənim yazı masam
olmayıb heç vaxt,
İldırım qələmlə,
Şimşək qələmlə
yazdıqlarımı
göyüzünə yazmışam-
göy üzündən
dizimin üstünə düşüb.
Yağış olub,
qar olub
soyuqdan istiyə düşüb.

## ÖZÜMÜ OXUYANDA

Arada vaxt tapıb
bir azca saralmış,
bir azca toz basmış
cızmaqaralarımı oxuyuram
ürəyimdə.
Sonra ucadan, ahənglə oxuyuram
Əməkdar adını
almaq istəyən kimi!

Yazdıqlarım
uzaq bir adadan
kiminsə qaibanə dediklərimiş-
mən adicə bir xəttat…

## GÖY ÜZÜNDƏN ÇOX AĞLAYAN YOXDU

Sən nə qədər ağlayıb
göz yaşından
yüz imarət tiksən də
çata bilməzsən göy üzünə.
Göy üzündən çox
ağlayan yoxdu!
Göy üzünün  göz yaşları böyükmüş
torpağı isladır,
daşı isladır,
baharı isladır,
qışı  isladır,
sənin gözündəki yaşı isladır!
Göy üzünün dərdi yaman böyükmüş
Sən ki, ağlayırsan
göz yaşlarının
İstisi ürəyini yandırar.
Göy üzünün dərdi yaman
böyükmüş
Göy üzü bu qədər
niyə ağlayır?!.

## KÖLGƏMƏ BAXIRLAR, KÖLGƏMƏ

Mənim özümə ha baxmırlar,
Üzümə-gözümə ha baxmırlar,
Ayaq atdığım izimə ha baxmırlar,
Ya dediyim sözümə ha baxmırlar.
Kölgəmə baxırlar, kölgəmə!

Gözüm
anadan olandan eynəkli,
Dizimdə taqət yox, əlim çəlikli,
Dərdim-sərim köynəkli
Baxan baxmır,
görən görmür.
Kölgəmə baxırlar, kölgəmə!

Ürəyimdə ağrılar var,
neçə dərdə duruşlar,
itnən-qurdnan çarpışmalar,
vuruşlar.
Alnımdakı çalın-çarpaz
qırışlar
Gözə görünürmü?
Kölgəmə baxırlar, kölgəmə!

Mən kölgəmi hərdən
nöqtə  boyda görürəm
Bəzən də heç görmürəm
Mənim kölgəm nə boydaymış, ilahi?
Kölgəyə baxırlarmış, kölgəyə.
Kölgəmə baxırlar, kölgəmə!

## QILINCIN KƏSİR İNDİ

Sən bu gün atını
dördnala çapırsan,
Qılıncının qabağı da kəsir,
dalı da.
Dünyanın varını-yoxunu

sağa da xərcləyirsən,
sola da –
kimsə durub dalında.
Ən bahalı zinətlər
gözünü qamaşdırır
atının yalmanında.
Atın çapır, çapır hey!
Sabah,
o sabahın sabahı –
günlərin bir günü,
dördnala çapdığın atın
yəhərində
otura bilməyəcəksən.
Qılıncı qolunda saxlamağa
heyin olmayacaq!
Atının yalmanında
zinət əvəzinə tər damcıları axacaq
Sənin olmayacaq bu həyat!
Dövrandı üzünə gülür,
Hələ atını fırlat.

## BİR QADIN HAQQINDA

Bir taxta qabına qoyulmuş kələm
Qıcqırıb,
İylənib.
Rəngi bilinmir.
Üzünə çıxıbdı ziri-zibili,
Əlinə bulaşsa, kifi silinmir.

Bəzəkli otaqda saxlanır,
nəsə,
Deyirsən qoxusu ətirdir, nədir.
Qıcqırmış, iylənmiş kələm
turşusu
Təmizlik adına bir nümunədir.

## BELƏ DƏ ÖMÜR OLAR?

Tutulubdu havası,
Yanıb xörək tavası.
Dağılıbdı yuvası,
Fikirlərin davası…
Belə də ömür olar?

Elə qəmli, kədərli
Yol gedirsən səhərə-
Səhər səhərə bənzər
Varıb hara gedəsən?
Şəhər şəhərə bənzər.
Ata min, ya dəvəyə,
Yəhər yəhərə bənzər,
Belə də ömür olar?

Başını sal aşağı,
Gülüş qoy gülüş üstə.
Qürbətdə göy qurşağı,
Vətəndə torpaq isti.

Belə ömür gözəldi,
Belə ölüm gözəldi!

## ADINI RƏQƏMLƏRLƏ YAZMIŞDIM

Rəqəmlər öldü gözümdə,
rəqəmlər –
ancaq hamısı yox.
Sənin telefon nömrənin rəqəmləri
Adını rəqəmlərlə yazmışdım
ayda, ildə bir dəfə
hansısa bayramda,
ya təsadüfən…

Mən sənin adını
rəqəmlərlə yazmışdım,
sən mənim adımı boşluğa -
arzu olunmayan adam kimi!
Olur!
Olur!
Bu qoca dünyada nə desən olur!
Bir Günəş altında yaşayanların
bir-birinə nə qədər borcu…
Adını rəqəmlərlə yazmışdım,
rəqəmlər öldü gözümdə.

## TƏLƏBEDİLƏNƏDƏK

O vaxtdan ki,
yollarımız ayrı düşdü,
eşitmirəm
xoş sədanı, ününü,
adını qarışıq salıram,
unutmuşam ad gününü!

## SƏKKİZLİK

Mən səni tanıdım
Varlığın ilə,
Nəyin var gözümün içində bir-bir.
Özünü göstərdin darlığın ilə,
Darlığın
evinin küncündə bir-bir.

Səs-səmir çıxmasın evdən qırağa,
Ayrılmaq
bu işin tək çıxış yolu,
Guya, mən deməsəm, bilməyəcəklər,
Beləsə, mən səndən qoy uzaq olum!

## BU YAŞIL MEŞƏDƏ

Bu yaşıl meşədə
qurumuş bir ağacsan.
Gövdən çürük,
budaqların da elə.

Üzünü mamır basıb,
göbələk yuvasısan.
Sən bu yaşıl meşəni
zəhərləyən havasan.

## NƏ DEYƏSİYƏM

Şümşad yanağına təbəssüm qondu,
Bu incə gülməyə nə deyəsiyəm?
Bir söz deyəcəkdin dodaqda dondu,
O sirli kəlməyə nə deyəsiyəm?

Baxmadım taleyin quru, yaşına,
Leysanlı yazına, qarlı qışına.
Bir aylı gecədə bulaq başına,
Gizlincə gəlməyə nə deyəsiyəm?

Bu da imtahandır, keç sınağından,
Qurtaraq söhbəti el qınağından.
Qoşa damcıları al yanağından,
Yaylıqla silməyə nə deyəsiyəm?

Dünya dəyişəcək, adlar güləcək,
Subaylar dəstədən bizi siləcək.
Qonşular biləcək, yadlar biləcək,
Bilsinlər, bilməyə nə deyəsiyəm?

# BİR BAXIRIQ GÜNƏŞƏ

Daha göyüzünün ağı çıxıbdı,
Daha göy üzünə əl çatır, qardaş.
Kimin ki, bir azca bığı çıxıbdı,
Elə göy üzünə əl atır, qardaş.

Ora əlçatmazdı, ünyetməz idi,
Bir tikə yeməklə dağ aşar insan,
Ora asimandı, gül bitməz idi,
Bir qarış yer üçün  dalaşar insan.

Bu dünya tək sənin, tək mənim deyil,
Cıdıra çıxırlar, ətəklənirlər,
Ömür evlərdəki səməni deyil,
Arı şanı kimi pətəklənibləri.

Nəfsini doyurmur dolu qucaq da,
Arxanı, yanları hamarlayırlar.
Tülkülər, çaqqallar qıraq-bucaqda,
Pələnglər ceyranı qamarlayırlar.

Dəyirman içində bir ələnmişik,
Tumurcuq açılır, pöhrə oyanır.
Ulduz tək dörd yana səpələnmişik,
Hamı da Günəşə birgə boylanır.

## ADAMDA NEÇƏ ÜZ OLAR?

Səni bir də lap yaxından tanıdım,
Ay Allah! Adamda neçə üz olar?
Peşman oldum, öz-özümdən utandım,
Ay Allah! Adamda neçə üz olar?

Yersiz alışırsan, yersiz yanırsan,
Özünü hamıdan öndə sanırsan.
Bu gün dediyini sabah danırsan,
Ay Allah! Adamda neçə üz olar?

Fağırın gözünə duz tökürsən, duz,
Dinməzin başından söz tökürsən, söz!
Güclünün önündə diz çökürsən, diz
Ay Allah! Adamda neçə üz olar?

Yalançı göz yaşı,
yalandan yüz ah,
Haqqı, ədaləti unutdun – günah!
Yaltaqlıq hörmətdən düşərmiş, vallah,
Ay Allah! Adamda neçə üz olar?

Şöhrət pilləsiylə elə gəlirsən,
Adını səhv yazdın! Özün bilirsən,
Ordan tüpürürlər, burdan silirsən-
Ay Allah! Adamda neçə üz olar?

# YEYƏNDƏ ÇOX YE…

Alma yeyirsənsə,
çox ye,
lap çox-çox ye!
Özü də
Quba alması ola!
Bir nədi,
iki nədi,
lap on iki nədi?
Yüzdən danış,
mindən danış.

Alma yeyirsənsə,
çox ye,
lap çox-çox ye,
tonlarla, vaqonlarla
sayan kimdi?
Heç saya da bilməzlər.
Az yesən soracaqlar
Gözlər kəlləyə çıxacaq
danışan,
və sairələr çox olacaq
Axı saya bilərlər…

Yeyirsənsə, elə ye ki,
adına layiq olsun!

## QOŞMA

Yurduma gəlmişəm, ay əziz dostum,
Özü haralını tanıyırsanmı?
Hər yan çəmənzardı,
Baxdım və susdum,
Könlü yaralını tanıyırsanmı?

Burda qayalar da gül-çiçək açar,
Burda kəklik uçar, marallar qaçar.
Sinəmdə sazımın simi od saçar,
Sözü qırılanı tanıyırsanmı?

Səninlə yaşıdam, bir gündəyəm mən,
Gündoğan sənsən. Sən!
Günəş dəyən mən!
Qırx arşın quyuda tilsimdəyəm mən,
Gözü qaralını tanıyırsanmı?

*İrəvan, may 1980*

## GÖYLƏR DURNA DƏSİNİNDİ

Göylər durna dəsinindi,
Durna dəsi göy üzünün.
Qürbət durna səsinindi,
Durna səsi göy üzünün.

Baş verib yata-yata.
Qan-tərə bata-bata.

Ümid varmı uçurlar,
Son mənzilə çatmağa.

Nə biləsən? Göy üzünün,
Ya soyuğu, istisi var?!
Tufanı, boranı, qarı,
Ocağının tüstüsü var?!

Durnalar qanadlı, atlı.
Sərhədləri bir-bir əzir.
Nə olursa olsun, ancaq,
Durnalar bahar gəzir.

Göy üzünün baharı yox,
Göy üzü durnaların…

## YOX, MƏNİM TƏZƏDƏN SEVƏN VAXTIM DÖY

Qəfildən yol azdı?
Hayandan çıxdı?
Qəlbimdə oynadı, gözümdə çaxdı.
Bircə yol, bircə yol üzümə baxdı,
Yox! Mənim təzədən sevən vaxtım döy.

Elə bil üzümə Günəş nur saçır,
Hürüdü, mələkdi, üstümə qaçır.
Məhəbbət üzündə təzə gül açır
Yox! Mənim təzədən sevən vaxtım döy.

Özümü yalandan necə öyüm ki?
Sehrli qapını necə döyüm ki?
O körpə fidana necə deyim ki?
Yox, mənim təzədən sevən vaxtım döy.

Sevgi möcüzədir, əbədi sandım,
Yatmışdım, yuxudan indi oyandım.
Dayanıb həsrətlə geri boylandım,
Yox! Mənim təzədən sevən vaxtım döy.

## ZAMAN SINAĞIM OLUR

Hərdən ötən günlər qonağım olur,
İlər külək kimi əsir üstümə.
Zaman-vaxt ötdükcə sınağım olur,
Zaman-qılınc olub kəsir üstümü.

## DƏRDLƏRİMİ BURDA QOYUB GETMƏK İSTƏYİRƏM UZAQLARA

Dərdlərimi burda qoyub
getmək istəyirəm
uzaqlara-
dərd məndən harda uzaqdır
oralara-
Marsa, Yupiterə, Veneraya, Aya,
Kobinzon  Kruzo yaşayan adaya,
Lap elə Antarktidaya

Dərdlərimi burda qoyub-
getmək  istəyirəm uzaqlara
baxmaram
uşağa,
cavana,
böyüyə,
ən azından
hansısa bir vağzalda itirdiyim
axtarmağı
xəyalıma gətirmədiyim yükə.

Dərdlərimi burda qoyub
getmək istəyirəm
Saçlarım da ağarıb
başımda bulud kimi.

Yerdə, göydə batacaq,
Dərdim dəvə yüküdü.
Dərdim dəvə belində
Mən getdiyim yerlərə,
Məndən qabaq çatacaq.

Dərdlərimi burda qoyub
getmək istəyirəm uzaqlara
Görən çəkən olacaqmı?
Allah, dərdi əkənə ver!
Allah dərdi çəkənə ver!

# HAMI TORPAĞA TƏRƏF

Məndən bir kibrit qutusu aşağıda
atamın, anamın otağı
Ömrün ixtiyar çağı!
Bir az yaşlaşanda,
bir az da heydən düşəndə
hamı torpağa qaçır.

Ayaqları torpağın üstündə,
əlləri torpağın istisində
başları indiyədək görmədikləri
qorxunun tüstüsündə
yıxılsalar da
torpaq onları tutacaq,
ayağa qaldıracaq.

…Gecələr narahatam
doyunca yuxum yox,
yuxum ərşə çəkilib
yatanda da
qarışıq yuxular…
Bu gecə yarısı
Pəncərəyə baxıram
Görən aşağıda işıq yanırmı?
Yanmırsa,
rahat nəfəs alıram…

## MƏNİM ALNIM KİTABDI

Mənim alnım kitabdı
səhifələri qırış-qırış
hamı oxuya bilən
ürəyimin arzusu,
fikrimdən keçənlər
açıqca yazılıb.

Mənim alnım kitabdı
məni  görənlərin, tanıyanların
oxuduğu, bildiyi,
oxuyub qurtaranda
nəzərlərdən sildiyi.

Mənim alnım kitabdı,
hansı bir küncdəsə
toz basmış, saralmış
gözləməkdən
gözlərinin kökü saralmış…

## GÜNDÜZ-GECƏ

Göylər mapmavi,
Sular şırhaşır,
Günəş qıpqırmızı,
Çöllər yamyaşıl,
Dağlar bomboz
Gecə ağappaq,
Yuxu qapqara,

İldırım şaqqaşaq
Külək vıyhavıy
Atlar taqqataq
İtlər hamhaham…
Bənizim sapsarı…
Yuxum qatmaqarışıq.

Gündüz-gecə,
Gecə-gündüz.

## YARIMÇIQ YAZILAN ŞEİR

Heç vaxt bilməyəcən nələr olubdu,
Sənə olanları deyiblər amma.
Bahar buludu tək gözün dolubdu,
Sənə deyilənlər…
Sən düzgün sanma.

Sənə deyibdilər, çox deyibdilər
Kim öz ayranına turş deyəcək ki?!
Düzü yalan edib çox əyibdilər.
Günahkar hər şeyi tərs deyəcək ki,
Aydan arı olsun, sudan da duru
Sən çalış özünü yalandan qoru.

Nə olsun, bu dünya yalan üstündə,
Düz sınar, amma ki, heç vaxt
əyilməz.
Oturub-durublar palan üstündə,
Yalan dəyişsə də, palan dəyişməz…

## DURNA DƏSİ KÖÇ ELƏYİR

Göyün üzü qaralıbdı,
Yaşıl yarpaq saralıbdı.
Vaxt, zaman da daralıbdı,
Durna dəsi köç eləyir.

Şaxta, boran… üşüyəcək,
Məkan uzun… töyşüyəcək,
Yurd-yuvanı dəyişəcək,
Durna dəsi köç eləyir.

Bir dayanın, nəfəs alın,
Bizim eldə qonaq olun.
Qışı elə bizdə qalın,
Durna dəsi köç eləyir.

## MƏNDƏN SONRA GƏLƏNLƏRİ…

Gecənin zil qaranlığı
Yata bilmirəm, bilmirəm.
Başımdakı fikirləri,
Ata bilmirəm, bilmirəm.

Mən əsgərəm, bir səngərdə,
Əlim qınımda, xəncərdə.
Bir cığır var sərt döngədə,
Çata bilmirəm, bilmirəm.

Həsrətliyəm, qəlbim yanar,
Qalıram hey yana-yana.
Öz yükümü o karvana,
Qata bilmirəm, bilmirəm.

Getmə, qardaş, lap dərinə,
O qumaş nə? O dəri nə?
Qızılımı mis yerinə
Sata bilmirəm, bilmirəm.

Mən çox dözdüm ayazlara,
Pambıq kimi bəyazlara.
Bir də ağlı dayazlara,
Bata bilmirəm, bilmirəm.

Yerli-yersiz gülənləri,
Dərdi pulla silənləri.
Məndən dalda gələnləri
Ötə bilmirəm, bilmirəm.

## GÜNLƏRİN BİR GÜNÜ

Bu gün,
sabah,
sabahdan sonrakı sabah –
nə vaxtsa günlərin bir günü
son nöqtə qoyulacaq,
sonun gəldiyini birinci sən biləcəksən.
Elə həmişə
atını dördnala çapası ha döysən!

Elə həmişə
dünyanı dördəlli qapası ha döysən!
Elə həmişə
nəyi istəyirsənsə yapası ha döysən!
Son gələcək, son!

Günlərin bir günü
Son vida günü
kim isə dalınca qara daş atacaq.

## EHTİYATSIZ İGİD...

Başımda dəbilqə,
qılıncım, qalxanım əlimdə –
lap quldar cəngavəri kimi –
düşmən üstünə getmirəm,
dayanmışam.
Özümü düşmənlərdən qoruyuram.
Ehtiyatlı igid!
Ananı ağlatma!
Hər an başının üstündə qara bulud,
Mərhəməti, özgə nələri unut!
Zəifləri heç qadınlar da sevməz,
nəinki həyat!
Heyhat!
Düşmənlərim uzaq, çox uzaq-
min kilometrlərlə aralı.
Heçimi bilmirlər,
Köçümü görmürlər
Onlar da mənim kimi
Müdafiə səngəri hörürlər…

Beləcə sakit,
itgisiz,
bərabərə qalan bir oyun.

Başım da
ürəyim və evimin qapısı kimi açıq
bağladılar əlimi –qolumu,
ayaqlarımı, dilimi,
əsir düşdüm özümə…

qırx arşın quyunun dibində
gözlərim çabalayır.
Ehtiyatsız igid!
Uduzmusan,
anan yersiz ağlayır…

***P.S.*** Özünü özündən,
bir də dostlardan qoru.

## MƏNDƏN KƏRƏM OLMAZ…

Getsin qara keşiş
dünyadan itsin.
Sehrindən gizlənim,
Qəfəsim yoxdu.

Əslilər görmüşəm
nə qədər desən,
Mənim Kərəm olmaq
həvəsim yoxdu.

## DOSTLARDAN QORUN

O kimdir? Qapını vədəsiz döyür,
Baxıb künc-bucağa min yerdə öyür.
Bilənlər söyləyir, bilənlər deyir,
Özünü dostlardan qoru, əzizim.

Hər gün bir tarixdi.
Tarix yazırsan.
Hərdən sevinirsən, hərdən qızırsan.
Düşmənin düşməndi, hərbə hazırsan,
Özünü dostlardan qoru, əzizim.

Qalmasın qəlbində nə kölgə, nə kin,
Dostu barmaqla say, birdi, ya iki.
Ocağın başından çoxunu  qov ki,
Özünü dostlardan qoru, əzizim.

Sənə xoş gəlməyə danışar nağıl,
Birisi  yaltaqdı, birisi paxıl.
Bir sözdü deyirəm, özün bil, axır,
Özünü dostlardan qoru, əzizim.

## HƏYATIN HƏR ANI

Yaxından, uzaqdan
gələndə səsi
Taleyin kədərli
gülən baxtıdı.
Dünyanın hər yeri

ölüm nöqtəsi,
Həyatın hər anı
vida vaxtıdı.

## YAXŞILIĞI ÜZÜMƏ ÇIRPDIN

Nə vaxtsa etdiyin yaxşılığı
iki əlinlə üzümə çırpdın
palçıq kimi
sifətim çat-çat oldu
çınqısı gözümü qanatlı
Sən hələ yel atlı,
özün də havalı –
gözün ayağının altını seçmir.

Yaxşılığı üzümə çırpdın,
elə bilirsən ki, sənindi həyat,
Səndən yox, yaxşılıqdan iyrəndim.

## YENİSEY

Burda çay donubdu,
elə bil axmır,
Gecələr gündüzə dönüb-bəmbəyaz.
Yağış da yağmır ki…
ildırım çaxmır
Beləcə başlayır Yeniseydə yaz.

Burda ağaclar da mənə tanışdı,
Palıd ağacları.

Burda vələs var.
Yarpaqlar üzümə elə qımışdı
Dedim, Azərbaycan adlı nəfəs var.

Ayağın altında otlar yamyaşıl,
Dənəvər torpağın qoxusu gəlir.
Üstündə otursan mamırlı daşın
Yuxusuz adamın yuxusu gəlir.

Yaşıl ormanlarda çiçəklər, güllər…
Onları görərsən Araz boyunca.
Gəzdikcə üzünü oxşayır yellər,
Çiyələk yeyərsən yığıb doyunca.

Quşların cəhcəhi, dediyi nəğmə…
Torağay, anadıl necə oxuyur?!
Məst olur onsuz da sərxoş baxışlar
Sarışın tellərə ilmə toxuyur.

Burda Çingiz, Batı…ruhu dolaşır,
Bura sürgün yeri, ölüm yuvası.
Gör bizim dağlara necə oxşayır?
Gəlir qulağına «Cəngi» havası.

Nə gözəl adın var, «Qırmızı dərə»,
Mən səni öz elim, obam bilmişəm.
Babamın zor ilə gəldiyi yerə,
Necə qəribədir? Özüm gəlmişəm.

Deyəsən, çay donub,
elə bil axmır,
Burda gecələr də gündüz tək bəyaz.
Xəyalım keçmişdə
Sözümə baxmır,
Burda, Yeniseydə
vaxt-vədəsə yaz…

## SƏNDƏN QIRAQ

Sənə məhəbbətim
dünyalar boyda,
Bilmirdim nə vaxtsa
nifrət edərəm.
Donur təbəssümüm…
Üz-üzə gəlsək,
Mən sənin yanından
qıraq gedərəm…

## OĞLANSAN

Səni tanıyırlar
Deməsələr də.
Bilirlər, sözündə yalan oğlansan.
Pislik.
Yolkəsənlik.
Daha nələr də…
Atlını atından salan oğlansan.

Sənə söz verilmir, sən dayan, əylə,
Daha danışırsan, «ağa»yla, «bəy»lə.
Alnının təri yox,
min bir hiyləylə
ölünün biriydin, kalan oğlansan.

Bacarıq hardadı?
Savadınsa qıt,
Ha öldür özünü, ha yaxanı yırt.
Güclünün önündə əyilib yüz qat,
Kasıbın canını alan oğlansan.

Səninki odur ki, alıb böləsən,
Uçurub, dağıdıb, tezdən siləsən.
De, neçə cəhət var?
Hardan biləsən?
Deyilən havanı çalan oğlansan.

Var-dövlət həvəsi…
Elə həvəsdi,
Aldığın, verdiyin saxta nəfəsdi.
Nə qədər deyərlər, dayan, day bəsdi,
Qiyamət, əjdaha, yaman oğlansan.

…Günəş ki, çıxır ha…
Torpaq güləcək,
Gözlərin yaşını yağış siləcək.
O gün uzaqda döy…
O gün gələcək
Bax onda, dəstədən qalan oğlansan,

Bir dəstə xor ilə söyləyəcək ki,
Filankəsin oğlu, filan oğlansan.

## QAÇIŞ MEYDANI

Sübh tezdən alayarımçıq yuxudan oyanıb,
quşların səsinə məhəl qoymadan
dayanacağa qaçmıram,
vaxt ölçüsü olmadan
eyvandan hər gün gördüklərimə
dönə-dönə baxıram.
Küçələr, ağaclar, maşınlar, adamlar
mənim baxışlarımdan bezmiş kimi
Çiynimdə ağır yük,
gəzdirirəm evdə-eşikdə
hər gün də üstünə ağırlıq gəlir.
Bir vaxtlar ayaqlarım daşıyardı bu yükü
indi çiynim çəkir.
Fikirlər başımda qarışıq
düşünməyə qoymur ki…
Fikri çəkmək çətindi,
yoxsa ehtiyacı?
Salam köhnə dostum!
Sən mənə hər üzünü göstərdin
Pəncərə yanında, şüşə yanında,
Ağaclar yanında, küçə yanında…
hörmətdən –izzətdən düşmüşəm artıq.
Uşaq ha döyəm,
üzümə deməsələr də

qırımlarından hiss edirəm.
Dostun, yoldaşın, yadın yanı –
cəhənnəm yuvası
saçımın ağlığı bəhanə,
Göylər  qocalırmı, göylər ağappaq,
Dağlar qocalırmı,
Düzü ağappaq.
Dünyanın üzü ağdı…
mənim üzümsə qara -
pəncərə yanında
şüşə yanında,
Ağaclar yanında
küçə yanında,
adamlar yanında…

Çiynimin yükü ağır,
ata bilmirəm, bilmirəm.
guya boşam, mən fağır
bütün günü bir gilə
yata bilmirəm, bilmirəm.

Dörd divar arasında televizor,
bayağı verilişlər,
Ən azından neçənci dəfə baxdığım
kinolar
daha futbola da maraq qalmayıb,
çay, papiros!
Boşluqdan
Oğurluq!
Narkotika!

Qadın alveri!
Nə var qurşanmağa
Ehtiyac ağa!

Ümid bu dəqiqə,
Ümid o saat.
Telefonumun üstünə daş asılıb
Səsi çıxmır.
Əlac yoxdur, gözləyirəm.
Səbrim duz yükü
Dünya qaçış meydanı,
Dünya döyüş meydanı.
Cəngə çıx, nizəylə, qalxan, qılıncla,
Zəiflərə ölüm!
Vur, dağıt, parçala, hökm elə!
Ehtiyac yox həkimə
İndi çətindi, çətin…

Dünya qaçış meydanı,
dünya  döyüş meydanı,
dayanma, qaç, irəli.
Bu marafon yarışında
Qaç görək, mənzil başına
necə gələcəksən,
Qaç! Qaç! Qaç!
Özgə əlacın yoxdu,
Dayandınmı?
Öləcəksən!

## TƏƏSSÜF

Sən mənim ilk eşqim,
ilk məhəbbətim
Bu arzu, bu istək
pənahım oldu.
Sevilə bilmədim
sevdiyim qədər
Təəssüf…
Sevməyim günahım oldu…

## GÜNƏŞ DUMAN SƏPİR

O qədər fikirləş…
Borcun ödənmir.
Fikirlər çəkilir
gündə tarıma.
Hayana gedirəm?
Yolum bilinmir,
Günəş duman səpib
duyğularıma.

## DƏDƏ DÜNYA

Gör neçə nəsillər görübdü zaman
Uçurub təzədən hörübdü zaman.
Atını dördnala sürübdü zaman,
Bilənlər deyib ki, gədə dünyadı.

Qızılla yazılıb hər qərinə, il,
Bir anı boşuna ötürən deyil.
Bir yanı aqildi, bi yanı cahil,
Mürəkkəb dünyadı, sadə dünyadı.

Sevinci bir ovuc…
Sən gəl döz dərdə.
Tərəzin düz olsun namərdə, mərdə.
Dağlarda, sularda, cəngəlliklərdə,
Güclüdən gücsüzə hədə dünyadı.

O bir kitabdı ki, qalından qalın,
O ulu, müqəddəs, sən əli yalın.
Müzahim, çox cavan bir ağsaqqalın,
Saxla hörmətini, dədə dünyadı.

## GÖY ÜZÜNDƏN KÜSMÜŞƏM

Mən daha göylərə baxmayacam,
Göy üzündən küsmüşəm.
Bircə ulduzunu mənə qıymadı.
Yolları açıqdı, şümşad kimiydi
Ulduzlar gələrdi, göylər qoymadı.

Başımın üstündə saysız-sanbasız,
Əlimi uzatsam çatar, ay aman!
Birini götürsəm nişanə kimi,
Görən pozularmı qatar, ay aman?
Göy üzü məndən küsər?
Onsuz da mən küsmüşəm.

Mən daha göylərə baxmayacağam,
Göy üzü qırxıncı otaqdı bəlkə?
Ora  sehr dolu, möcüzə dolu.
Qapılar üzünə min bir sədd çəkər,
Qayıda bilmirsən getdiyin yolu.

Hansı xəyanətin qurbanısan sən.
Haqq işin üzünə açar səhəri.
Ehtiyat igidə yaraşıq kimi
Bura ulan yurdu, divlər şəhəri.

Burda addım atmaq
Ağıla gəlməz.
Uçan xalça gərək, ya Zümrüd quşu.
Fikirlər dolaşıb nağıla gəlməz,
Bir daşa dönərsən heykəl duruşlu.

Sən küs göy üzündən, nə  vecinədi,
Sən torpaq oğlusan, belədir yazın.
Qürbət cənnət olsa, Vətən sayılmaz,
Sənin o qürbətdə nə itin azıb.

Mən daha göylərə baxmayacam
Mən küsə bilərəm özüm-özümə.
Göy üzü biləcək, ya bilməyəcək,
Yağışlar yağacaq nə qədər desən
Bir ulduz nişanə…
Yox, gəlməyəcək.

# BUZ KİMİ SƏRİN SU

Yayın cırhacır istisi
nəfəsim kəsilir.
Sinoptiklər 39 dərəcə isti deyir
Qırxdımı, qırx  beşdimi- bilmirəm
evdə  gözüaçıq yatmaqdan bezmişəm,
əlimi dünyadan üzmüşəm,
fikirlər üzümə yorğan
ayaqlarım lümlüt
qapqara tüklər
dərimi pöşələyir
Su içmək istəyirəm
buz kimi
içmişəm, içirəm,
içəcəyim suyun bir anlıq sərinliyi
boğazımda isinir,
aşağı lal dənizdi.

Yayın cırhacır istisi
şimal  küləyi havaya buxarlanıb
ağacların yarpaqları yaşıl skelet
kölgəm asfaltı yandırır,
ayaqqabı ayaqlarımı.
Ayaqlarım, barmaqlarım
su istəyir, su! Cadar-cadar olub
bumbuz!
Hələ istidən bezib
soyuq  hava istəyirəm
39 dərəcə soyuq!

Dizəcən qar yağsın
elə indi.
Yay ömrümün üstünə.

Yayın cırhacır istisi,
işdən sonra
ayaqlarımın yorğunluğunu
addım-addım səpələyirəm
odun içinə
ayaqlarım,
əllərim,
gözlərim,
ürəyim
yarımçıq atdığım papiros
istidən cadar-cadar
Su istəyir
Buz kimi sərin su var?!

## TƏNHAYAM

Tənhayam,
Gecə kimi
Hamıdan uzaq olmaq istəyirəm
Hamının uzaq olmaq istədiyi yerlərdə
olmaq istəyirəm.
Evdən baş götürüb çıxmışam.
Evim də tənha qalıb mənsiz
Ancaq bir az uzaqlaşdıqca
evim fikirlərimə
ürəyimin küncünə

əlavə yük olur,
qayğılarım məndən qabaqda qaçır
mənə yolkeçilməz iz açır.
Hara getdiyimi bilmirəm,
hara  gəldi gedirəm.
Yanımdan adamlar keçir
uzanmış kölgələriylə
mənə toxunmamaqçün
bəlkə, bəlkə, bəlkələriylə.

Tənhayam,
bu boyda şəhərin milyonları içində,
maşınların səs-küyü,
işıqları,
Gəzməyə çıxan qocaların, cavanların
uşaqları
şən, qayğısız.
Mən qayğılar içində –
Yelkənsiz, filansız
Dəniz də görünmür
hündürmərtəbələrin  arxasında,
dağların səsi yox.
dəniz də tənhadımı?
Dalğasız nə dəniz?
Dəniz nə dənizdi dalğasız?
Bəlkə erkən yuxuya gedib?
Əgər yuxuya gedibsə,
xoşbəxtdir dəniz.
Tənha deyil, yuxulayır.

Tənhayam,
Təzə Ay doğubdu,
ulduzlar təbəssümlə sayrışır,
kiminsə xoşuna gəlmək üçün
bir-biriylə yarışır.
Mən uşaq olanda beləydim, vallah.
Şən, gülərüz, zarafatcıl!
Bəzən düşünürsən
elə şən olanda dərdsiz-kədərsiz
öləydim, vallah!
Ölüm həmişə var!
Ölməyə nə var.
Tənhayam
iş otağımdakı qara stulda
əlli beş yaşımın qocalığını
bir uşaq-xanım qız əvəz eləyir,
uzunboy, sarısaç, sinə ağappaq
ağzından süd iyi gəlsə də hələ
arxalı köpəkdi başında papaq
arxada bir qara köpək dayanıb
Onun  cangüdəni,
onun nəyisə…
mənimsə  qatilim.

Məni ölüm qorxutmur.
Ölümə nə var?
Ölüm gözəl şeydi
Təki tənha olmayasan!

Tənhayam,
Gecə kimi.
Dəniz kimi, göy kimi,
küçə kimi, ağac kimi,
daş kimi.
Cəhənnəmə gedən özünə yoldaş axtarar,
Bax, o yoldaş kimi…

## İÇİM ODA QALANIR

İçimdə bir qurd dolanır,
İçimdə.
Ayağımın ucundan tutmuş başımacan
(dırnağımdan saçımacan)
Qurd deyirəm sənə!
Oyur, oyur, oyur,
yaman  günə qoyur məni!
Adı birtəhərdi, yadımda qalmır.
Kibrit qutusunda iylədə-iylədə
verdiyim
analizimin  cavabında yazılıb.
Dəqiq!
Həkimin əlac yazısı
yalan olmasın yarım metr uzunluğunda.

Bir qurd nə imiş ki?!
Ağ yox. xallı qurd!
Ağ qurdu yaman deyirlər
Xallı qurd toya getməlidi.
Bəxtim gətiribmiş...

O qədər dərman,
Səhər,
günorta,
axşam.

İçhaiç.
Yeməkən qabaq,
Yeməkdən sonra.
Sistem, filan hələ
Xallı qurd özünü vermir ki, ələ!
Hansısa milyarderin yaraşıqlı evində
rahatca gəzib –dolaşmaq,
yeyib-içmək.
dünyadan keçmək.
Mənim içim hara?!

Mənim içim hara,
kef-damaq hara?
Xallı qurd özünü salıbdı ora.
Ora kədər dolu qəm yuvasıdı.
Havası Sumqayıt havasıdı,
zəhər dolu.

İçimdə bir qurd dolanır
mən qurddu adam olmamışam
yediyim soğan-çörək
üzümdə qızarıb
mən qurddu addım atmamışam
kiminsə üzünə-gözünə bozarıb.

Bu qurd hardan tapıb məni?
Xallı qurd.
Əl çəkmir içimdən –
dərmanların köməyi yox,
oturub – şah taxtında,
yeyir-içir, fırlanır –
məni sapsarı saraldıb,
bir sümük bir dəri qalmışam,
yuxumu əlimdən alıb.
Səksəkə içindəyəm
həkimlərdən kömək yox,
ona işlədiləsi kələk yox!
O özü ən yekə kələkbaz imiş!

Qıraqdan baxanlar görməsələr də,
İçimdə bir qurd var
meydan sulayır.
Adını bimirəm, yadımda qalmır,
İçimi oda qalayır.

## X, U, Z ADAMLAR

Salam, X adam!
Sən indi hardasan? Təqaüdə çıxmısan?
Sənədlərin üst-üstə bağlanıb
atılıbdı arxivə.
Arxiv!
Siçanların yuvası,
qırx arşın quyunun kəsif havası.
Gedər-gəlməz!

Salam, X adam!
Vardı günlər, günlər, heyyy!
Vardı aylar, illər, heyyy!
Qarşında
a adam,
b adam,
c adam
d adam…
Bütün hərflərin  onqat,
yüzqat sayı,
sağında, solunda,
qabağında,
ayağının altında –
getdiyin, gəldiyin yolunda
Gözləri ağzına tikili,
əmrə  müntəzir əsgər!
Əsgər nədi, əsgərdən də betər!
Nökər!
Nə hava çalırdın  oynayırdılar,
Oynamaqdan doymayırdılar!
Yaltaqlar,
oğrular,
rüşvətxorlar, zurnaçılar,
bisavadlar dəstəsi
əl-ələ verib «Yallı» gedirdilər
Sən də onların başında,
Fəslin baharında, qışında.
Hanı, hanı o günlər?
Düşün, arada ah çək
«Bəlkə də qaytardılar?»

Salam, X adam!
İndi sənin yerində
U adam əyləşib.
Qılınclayır kölgəni.
Yamanca əsəbləşib
Sən özündən əvvəlkinə
qızan  kimi.
Nələr deyib? Necə deyib?
Sən bilirsən ozan kimi,
qarşındakı
a adam
b adam
c adam
d adam…
zurnaçılar dəstəsinin hamısı.
İndi y adama aftafa gəzdirirlər.
Sən onlara düşmənsən,
Özlərini səndən gizlədirlər.
Birdən y adam eşidər ki,
Filankəs sənə salam verib.
Axı, sən daha arxivsən!
Siçanların yuvası.

Salam, y adam!
Bir azdan
Yerində z adam əyləşəcək.
O da başlayacaq səni….
A, b, c, d… adamlar
Z adama aftafa tutacaqlar!

Sən də arxiv olacaqsan.
Siçanların yuvası!
…Biri varmış, biri yoxmuş…
Bu nağılı başlamaq da
qurtarmaq da  çətin, çətin.
…Göydən üç alma düşdü,
Biri x-in,
Biri y-in,
Biri də z-in.

## DƏNİZ GÖZÜMÜZDƏ

Dəniz gözümüzdə
bir az gözümüzə də oxşayan dəniz.
Avtobusların son dayanacağı
adamların  son dayanacağı buraymış,
qocalar, cavanlar, uşaqlar,
ən çox da sevməyə təzəcə başlayanlar
dənizə gəlirlər, hava almağa
dənizin havası dərmandı, demə.

Dəniz gözümüzdə
bir az  gözümüzə də oxşayan dəniz.
Sahildəyik
sevgisiz, filansız oturub
dənizə boylanırıq səssiz-səmirsiz.
Küsülü adamlar kimi
Dəniz heyimizi alıb
danışmağa,
gülməyə gücümüz çatmır.

Dəniz gözümüzdə
bir az  gözümüzə də oxşayan dəniz
dənizin yosunu var,
yosun qoxuyar,
dənizin balığı var
balıq qoxuyar
özgə sevgisi var,
sevgi qoxuyar?!
Dəniz zəhər qoxuyur!
Qocalar, cavanlar, uşaqlar
ən çox da sevməyə təzə başlayanlar
dəniz havası almağa gəlirlər
Dəniz zəhərə dönüb,
havası da.

Dəniz gözümüzdə,
Bir az gözümüzə də oxşayan dəniz
Nəğmə oxumaz ki…
Sevgi qoxumaz ki!
Bizi ovutmaz ki!
Qış yuxusundan oyanaq,
Üz-üzə.
Göz-gözə dayanaq,
Dənizə yox,
Bir-birimizə boylanaq.

Dəniz dalğalarıyla addım-addım
üstümüzə şığıyır…
Dəniz gözümüzdə…

# QARA İŞIQ

*Fikrət Mursaqulovun xatirəsinə*

Qaranlıq düşür
saçlarına, üzünə,
küçələrə, keçidlərə, izinə.
Gecənə, gündüzünə.

Qaranlıq düşür
ayaqlarına, əllərinə,
ətrini qoxuyub rəngini görmədiyin
güllərinə,
su kimi axıb gedən
günlərinə, aylarına, illərinə.

Qaranlıq düşür,
mədhiyyələrə, mərsiyələrə, təriflərə,
tülkü, canavar, qaban xislətli həriflərə,
bizlə sarı kağızı geşən hərflərə.

Qaranlıq düşür
yanından saymazyana ötən kimlərə,
yuxarıdan, aşağıdan
soldan, sağdan edilən himlərə,
indi ucuzlaşan sevgilərə.

Qaranlıqdan keçirsən
sağ əlin
Givinin, Əflatunun, Məhərrəmin
qolunda

Əlində çəlik kimi düyməni basırsan
yaşıl işıq yanır yolunda.

## BAKI-İRƏVAN QATARI

Sən demə
«Bakı-İrəvan» qatarı
ayrılıq, həsrət yükü daşıyırmış
hər gün, hər gecə –
Bakıdan İrəvana,
İrəvandan Bakıya.
Araz boyu
o yan  Vətən,
bu yan Vətən
Araz boyu
hər yan sərhəd məftilləri.
Gecəni yuxudan oyatmamaqçun
Araz qınına çəkilib, pas atıb
Sərhəd  məftilləri kimi
Sular, daşlar, qayalar,
Yollar, ağaclar, adamlar –
Hər şey, hər şey bayatıdı, ağıdı,
Çırpılır «Bakı-İrəvan» qatarına,
Vaqonlara, qapılara, çiçəklərə, yuxulara.

Sən demə
«Bakı-İrəvan» qatarı
bir durna dəsiymiş
sıralanıb Araz boyu
bayatı-bayatı səpələnirmiş
qərib olan dağlara.

Qərib olan sulara
Paslanmış sərhəd məftillərinə…
Hər gün, hər gecə.

## GÖY ÜZÜNƏ YAZIRAM

Bu yer üzü stolumun üstündə
ağ  vərəqlərə
torpağını, daşını, suyunu, ağacını
vərəq-vərəq çevirib yazıram
Bir qarış boş yer yoxdu
Yazacağım nəğmələr hələ çoxdu.

İndi Göy üzünə üz tutmuşam.
səhifələyirəm
bulud-bulud
ulduz-ulduz
o üz, bu üz.

## GƏRMƏŞOV AĞACI ARAZDA İTDİ

Heyif! Heyif! Çox heyif!
Qaçqınçılıq vaxtı çoban Kərəm
özünü mal-qarasıyla Araza vurub
İrana keçəndə
İtirdi ucu qarmaqlı gərməşov ağacını
Araz apardı getdi.

Ucu qarmaqlı gərməşov ağacı
əlində  olsaydı

arxasız skamyada oturduğuna
ona dirsəklənər,
ayağını ayağına aşırıb qoymazdı
ayaqları sızıldasın,
fikirləri  ağrısın.

Gərməşov ağacı əlində olsaydı
zeytun ağacının budaqlarını əyər.
Giləleri ovuc-ovuc cibinə, qoynuna yığar,
Şüşələrə doldurub çörək pulu çıxarardı.
Verilən çörək pulu gününə bəs eləmir,
Təqaüdü də eləcə!

Gərməşov ağacı əlində olsaydı,
Mal-qarasını dəyər-dəyməzinə satıb
əli ətəyindən uzun şəhərdədi
tikintisi yarımçıq yataqxanada
döşəyi, balışı, yorğanı daşdı,
yuxusunda qara atını çapmır.
Yatır! Yatır! Yatır!
Otarmağa heç nə tapmır.

## QATAR ŞÜŞƏDƏN GEDİR

Dəmiryol vağzalı pəncərəmin şüşəsində
Şəhərin ən yüksək guşəsində
mənim evim,
evimin pəncərəsi
gözümün önündədi vağzal
gözümə yaxın, çox yaxın,

ayaqlarıma uzaq, uzaq
pəncərəmin şüşəsində dəmiryol vağzalı
xətlər bir-birinə dolaşıq
Dolaşmış saplar kimi
- Taq! Taraq! Taqtaq!
Külək şüşəni döyəcləyir
Qatar gedir şüşədən
Ən yüksək bir guşədən
Vaqonlar dalbadal
Təsbeh giləlāri tək.

Vağzal pəncərəmin şüşəsində
otağım  gözləmə zalı
- O dünyadan gələn qatar
əbədilik gecikir!
Bu elandan əsəblərim gərilir.
- Taq! Taraq! Taqtaq!
Təzə elan!
- Diqqət! Ehtiyatlı olun!
Birinci yola qatar verilir!
Qatar pəncərəmin şüşəsində!

## GÖZLƏRİM GÖY ÜZÜ

Gözlərim göy üzü
tutuldu daha
Buludlar oynayar o yan – bu yana.
Leysan yağışları yağar aramsız
Torpaq daşdan ola, ya da dəmirdən
Ona tab gətirə, dözə, dayana!

## ANAMIN XATİRƏSİNƏ

Əvvəlcə ayaqları yoruldu.
Yoruldu əməlli-başlı.
Addım ata bilmədi bir qarış da.
Yetmiş doqquz il
bir an da dayanmadı
atlı kimi çapdı payi-piyada -
torpaqda, daşda, palçıqda, yağışda
dabanı cadar-cadar.

Əvvəlcə ayaqları yoruldu,
yorğan-döşəyə uzanıb
yerində qovruldu.
Göy üzü tavanda
Gözü tavanda itdi.
Tavana baxa-baxa
Ömründə ilk dəfə gözüaçıq
Yuxuya getdi.

## ELƏMİ

Kədərli nəğmələr oxuyursan sən,
Dünyanın bir üzü bozdu, eləmi?
Fikirdən bataqlıq qoxuyursan sən
Yollar da, izlər də tozdu, eləmi?

Səhər Günəş çıxır, gecə ulduzlar,
Göydən yağış yağır, göydən həm də qar.
Sadə nə görürsən, öz mənası var
Sirri bir deyil ki, yüzdü, eləmi?

Sel basıb görürsən bəndi –bərəni,
Uca zirvələri, dərin dərəni.
O kimdir yuxuda gördüklərini
Özünə tərsinə yozur, eləmi?

## ŞƏKİLLƏRİNİ OXUYACAM

Gah əllərin qoynunda,
gah saçlı-saqqallı,
gah da gözlərini yana yönəldib
özünü qəmli adamlar kimi
göstərmək istəyirsən.

Şəkillərin növbənöv
şeir kitablarında
Şeirlərindən daha çox
şəkillərin  oxunaqlı.
Vərəqlədim dişimi dişimə tutub
ordan-burdan
Şeirlərin ordan-burdan,
ondan-bundan,
adda-budda.

Yazdıqlarından daha çox
şəkillərin  oxunaqlı.
Şəkillərini oxuyacam.

## GÜNLƏR NECƏ AXIB GEDİR, İLAHİ!

Günlər necə axıb gedir, ilahi!
Bir göz qırpımında,
su içimində,
ömür divardan asılmış güzgünün
biçimində.

Dayanıb baxırsan özün-özünə
baxırsan,  baxırsan!
Baxmaqdan doymursan –
Bilirsən, hələ ölümə çox var,
Bəzən
heç ölüm haqqında düşünmürsən!
Ölüm olacaq nə vaxtsa!
Olacaq!
Ancaq
hələ güzgüdə boy-buxununa
baxmaq vaxtıdı!
Ayağın qızıl taxtda:
Günlər necə axıb gedir, ilahi!
Bir su içimində,
göz qırpımında
Uşaqlığımız xoşumuza gəlmədi,
tez böyüyüb kişi olmaq istədik,
uşaqlığımız
böyük olmaq xəyalıyla əridi
Gənclik gəldi
Gəncliyin üzü bəriydi –
arzular ulduzlardan çox.
ehtiyac da eləcə.

Ehtiyacları boğa-boğa
gənclik əldən getdi beləcə.

Günlər necə axıb gedir, ilahi!
Bir göz qırpımında,
su içimində
saç-saqqalın ağarmağın içində
təzədən uşaq olmaq istəyirsən,
cavan olmaq istəyirsən təzədən.
Səhvlərinin yanından ötüb,
Səhvlərin arzular qədər.
Bir ağac böyütmüsənsə
Ömrün getməyib hədər.
Qocalıq da bir körpüdür
onu  keçən keçməlidi
ömür bulağından
səksən, doxsan, yüz bahar içən
keçməlidi.
O körpüyə hamı çatmaz,
Günlər necə axıb gedir, ilahi!
bir göz qırpımında,
su içimində!

## BU KEÇƏL HƏMZƏLƏR

Hər zaman olubdu keçəl həmzələr,
Bu keçəl həmzəlik köhnə bir sənət.
Hər zaman olubdu keçəl həmzələr,
Və Dona xanımlar,
ucuz məhəbbət.

Hər zaman olubdu keçəl həmzələr,
Keçəl baxtlarıyla,
keçəl  baxtları
ayaq üstündə
Dona xanımların girib qoluna,
Rahatca gəliblər bəylik taxtına.

Hər zaman olubdu keçəl həmzələr,
Toqat paçasının başı hardaydı?
Nəyinə gərəkdi Koroğlunun Qıratı?
Onu minən ha deyildi?
Minib çapan ha deyildi?
Çapıb qılıncıyla düşməni vuran ha deyildi?

Paşasan, otur paşa yerində,
Koroğluyla nə işin var?
Daş atırsan bostanına?!

Keçəl həmzələrin bəxti yüyrəkdi,
Bu keçəl həmzəlik köhnə bir sənət.
Dona xanımların girib qoluna
Bəylik taxt –tacına sahib olursan,
Könlündə bir quru, ucuz məhəbbət.

Hər zaman olubdu
keçəl həmzələr.

*Bodrum, 2012*

# COKONDADAN GÖZƏL OLMAQ OLARMI?

Evimiz muzey deyil,
adi bir kənd evi.
1958-də
çay daşlarından,
sarı palçıqdan tikiblər atamla anam.
Üstü qırmızı kərpic,
pəncərələri fısdıq ağacından.
Kəndimizin ilk ali təhsilli müəllimi
atam,
İlk ali təhsilli qadını – anam,
İlk iki mərtəbəli evi – bizimki.
İkinci mərtəbənin ən görməli yerində
Leonardo da Vinçinin
«Cokondanın təbəssümü» asılıb
atamın, anamın, böyüdülmüş gənclik
şəkilləri ilə yanaşı,
«Cokondanın təbəssümü» bizimlə idi
səhər,  günorta, axşam.
Mən ona nə qədər təklikdə
dönə-dönə baxmışam,
baxıb heyran qalmışam…

Evimiz muzey deyil,
«Cokondanın təbəssümü» eksponat.
Evimizə gələnlər bu şəklə baxıb
tanımadıqlarından  soruşurdular
o qadının adını
«-Qohumdumu?»

«-Hansı qohum?»
«-Necə qohum?»
Sonra adı
Bir neçə dəfə təkrardan sonra
yadlarında qalırdı.
«-Cokonda! Cokonda!»
Bilmirəm şəkli xoşuna gəlmişdi,
yoxsa adı
Sürücü Valeh qızının adını
Cokonda qoymuşdu.

Evimiz muzey deyil,
Luvr muzeyi
Aylar ötüb illər keçdikcə
qocalırdı evimiz:
çay daşları sarı torpaqdan ayrılırdı,
fısdıq pəncərələr xətt-xətt aralanırdı,
üstünə sobanın qara hisi çökür,
bir də yaşıl otlar bitirdi.
qırmızı kərpiclərin üstünə
atam qocalırdı,
anam da eləcə.
«Cokondanın təbəssümü»
Olduğu tək qalmışdı
sarı rənglər çökürdü şəklə.
Biz isə böyüyürdük.
Hətta
Mən o qızı sevirdim,
Saçlarını,
baxışlarını,
təbəssümünü…

O, hətta
Cokondadan gözəl idi!

Bizim ev muzey deyil,
Luvr muzeyi,
nə də mən eksponat.
«-Sənin saçların gözəldi!»
«-Sənin baxışların gözəldi!»
«-Sənin təbəssümün gözəldi!»
«-Sən Cokondadan da gözəlsən!»

Bizim kənd muzey deyil,
Luvr muzeyi
bizim ev də,
mən də,
o qız da,
sevgim də eksponat.
Beləydi həyat!
O qız oda döndü birdən.
«-Heç Cokondadan da gözəl olmaq
olarmı?
Cokonda Cokondadı!»

Bizim ev muzey deyil,
Luvr muzeyi,
atamın, anamın, Cokondanın
qocalmaq bilməyən cavanlıq şəkilləri,
bir də mən,
xəyalımda o qızın
Cokondadan da gözəl təbəssümü,
və ölən sevgim…

*Florensiya, 2013*

## HƏLƏ BƏXTİN AT ÜSTƏDİ

*X. üçün*

Hələ bəxtin at üstündə,
Çapırdırsan sağa, sola.
Havalı, başı tüstülü
Dağ-dərəylə, daşlı yolla.

Pambıq ilə baş kəsirsən,
Başı gedən səs eləməz.
Boğdun, kimsə haqqı desə –
Gündə yüz yol bəs eləməz
Alnından güllələnsən.

Hələ bəxtin at üstədi
Atını çap!

*2012*

## ÖZGƏ BAXIŞLAR

Hərəmiz dünyanı bir cür görürük,
Sənin öz arşının, mənim eləcə.
Yaşamaq uğrunda sinə gəririk,
Günlər ötüb keçir elə-beləcə.

Adi bir varlıqsan, keçmişin bəlli,
Bəxtin at üstədi, çox dəyişmisən.
Pələng xislətlisən, amansız, dəli,
Padşahlıq taxtında əyləşmisən sən?!

Özündən razısan, hələ gücün var,
Qarşına çıxanı qovlayırsan hey.
Bu qədər insafsız olmaqmı olar?!
Su içən ceyranı ovlayırsan hey.

Sənindi bu dərə,
sənindi bu bağ,
canlını-cansızı ac istəyirsən.
Bir pöhrə yetirsə bir qoca budaq
Sən ondan nə qədər bac istəyirsən?

Qana susamısan, gözün pərdəli,
Əzdin, ayaq altda neçə güllər var.
Nə vaxt sona çatar yüz hiylə, felin?!
Unutma, dəvədən böyük fillər var.

Bu da insan oğlu, əldə kərənti
Bu yaşıl zəmini başdan biçərlər.
Səni ayağının altına salıb,
Qarışqa əzən tək basıb keçərlər.

*Qaqra, 2013*

## XİSLƏT

Meşədə quşu da ac istəyirsən,
Dənizdə balığı, dağda turacı,
Gözün gördüyündən bac istəyirsən,
Varlını buraxıb tutursan acı.

# TORPAĞIN ÜZÜ SOYUQDU

Anamın dəfn günü
torpaq elə istiydi ki…
Ana qucağı kimi.

Üç gün sonra
yağışlar yağdı üstünə
quşlar qanadlarıyla çəpər çəkdilər
Yaylaq alaçığı kimi.

Yeddinci gün
göz yaşları sərinlik çilədi
ürəklərə
Mən də «kişi ağlamaz» deyənlərin
sözünə baxmayıb ağladım
Ürəyim daşdan deyil ki?

Qırx gün, qırx gecə,
soyutdu havaları
torpaq elə bil soyuducuya
qoyulmuşdu.

Bir il…
Min illərin içində
İt-bat olurmuş, demə!

*26 iyul 2014*
*Gədəbəy*

# YAYIN QOR TÖKƏN VAXTLARI

Küləksiz gecə
Yayın qor tökən vaxtları,
daha dəqiqi: iyul-avqust ayları –
Yorğunluqdan, istidən
o qədər su içmişəm ki,
göl olmuşam, göl!

Küləksiz gecə,
yayın  qor tökən vaxtları
yarpaqlar tərpənmir
susuzluqdan dodaqları qupquru
Mənimsə çiynimdə dünyanın yükü
Yerimə uzanmışam
ağırlığımı
balışa, döşəyə səpmək istəyirəm,
Toxumu cücərməyib!..

Küləksiz gecə,
yayın qor tökən vaxtları
tavanım kağızla örtülüb-
uğuldayır.
Tavan da uğuldayarmı?
Kağız da uğuldayarmı?
Başımdı, başımdı, başım!
Başım uğuldayır,
mənsə tavana baxıram.

Küləksiz gecə,
yayın qor tökən vaxtları,

kağızın arasından
sapsarı arılar yuxuma cumurlar
ətimə sancdıqları iynələriylə
Sən bax,
it arıları evimdə yuva qurub.

Küləksiz gecə,
yayın qor tökən vaxtları
əlimin, qolumun, dizimin
taqəti tər içində
it arsının yuvasına tüstü
vermək
yuxularıma qarışır
xəyalımdan keçəndə…

*Bodrum, 2012*

## YOLÇU YOLDA GƏRƏK

Gündüzlər Günəşin işığına
gecələr Aya doğru gedirəm.

Dənizin dalğalarından
duzlu su içməkdən bezib
axar  çaya doğru gedirəm.

Qışın qulaq donduran şaxtasından
boğazı cırılmış çəkməmlə
sürüşə-sürüşə
üzü yaya doğru gedirəm.

Yolçu yolunda gərək!

*2013, Bodrum*

## ƏN SONUNCU DA…

Ən sonuncu da
işığın düyməsini basır,
hər yan qaranlıq.
Ayın işığı da düşmür otağa.
Səssizlik!
Sükut!
Sən elə səssizlikdən,
sükutdan qorxursan!
Tənhalıq ağır yük,
çiynindən asılı
və heç zaman yerə düşməyəsi –
səninlə qəbrə kimi yol gedəsi…

Ən sonuncu da
işığın düyməsini basır,
qoşa balış,
tək sən!
Daha gələn olmayacaq!
Sənin balışından su damcılayır
Qurumur, qurumur, qurumur balışın
Onunku…
yayın qor tökən ayında da bumbuz
di gəl, döşəyindən od yağır
Tənha qadın odla su arasında!
Həkimlər dərman deyib -
odla suyu ürəyinin yarasına.

Ən sonuncu da
işığın düyməsini basır,

səhərlər yuxusu ha yoxdu,
dan üzü ağarmamışdan ayaq üstədi,
İşləyənə iş o qədər!
Kişi işləri də onun,
ərinin yerinə də tər tökür.
Nənəsi də beləydi –
Nənəsinə müharibədən bir qara
kağız qaldı.
Qara kağız tənhalıq!
Oğlunu böyütdü,
sonra nəvələrini.
İndi nənəsinin taleyini yaşayır.
Təkcə qara kağız yerinə
tənhalığı daşıyır…
Babasının qəbri yoxdu,
əri kəndin qırağındakı qəbristanlıqda
oğlu evlənib,
qızı ərə gedib –
hərəsi öz evində.
Arada baş çəkirlər –
nəvələri başında turp əkirlər.
Hər şey ötəri,
bir anın içindəcə
yuxu kimi.
O qədər fikirləşir
bəzən özünü sanır yox kimi!
Başını yaylıqla örtməsə
bir qucaq qar görərsən başında –
əriməyən!
Nə gizlətsin,

ona  könül açan olub –
hamısına bir cavab var:
- Mən özümün ərimən!

Ən sonuncu da
işığın düyməsini  basır.
Qorxa-qorxa
gecənin səsinə.
Ulduzların gülüş bəhsə-bəhsinə…
qulaq asır.
Həyat sönür!
Həyat təzədən başlayır!

## GÖZLƏRİMİN NURU AZALIB

Daha gözlərimin nuru azalıb,
Yaxını-uzağı seçə bilmirəm.
Gül-çiçək,
Daş-kəsək-rəngi bozarıb,
Bir xırda ağacı keçə bilmirəm.

Görmürəm üzünü yağışın, qarın,
Duman ətəyini büküb dağların?!
Diz qoyub daşına buz bulaqların
Yarpızlı suyundan içə bilmirəm.

Bozdağın zirvəsi Nuhun gəmisi?!
Gələnlər bir ucdan, gedən kimisi!
Çörək ətirlidir taxıl zəmisi
Əlimdə kərənti, biçə bilmirəm.

Atlanır ürəyim göy yaylaqlara,
Qalmışam, o yurda köçə  bilmirəm.

## DAHA GÖZLƏRİM ÖZÜMÜNKÜ DEYİL

Daha gözlərim özümünkü deyil,
alnımda yad cisim:
bir ucu burnumda,
o iri ucu qulaqlarımda
şüşələrlə görürəm  adamları,
ağacları,
yeri, göyü,
hərfləri.

Neçə ildən bəri
gözlərimdə yad cisim
Günəşə baxıram, Aya baxıram,
Dağlara baxıram, çaya baxıram.
Çiçəkləri, gülləri,
Günləri, ayları, illəri,
neçə-neçə nəsilləri
görürəm.

Daha gözlərim özümünkü deyil,
çiçəklərlə baxıram  işıqlı dünyaya
ən xırda görüntülər
şüşələrdən gözümdə,
Mat qalıram özüm də!

Güzgüdə
gözlərimə baxıram – yad cismə.
Özümü də görürəm,  arıları da,
Günahları da görürəm,
günahkarları da.

Daha gözlərim özümünkü deyil,
şüşələri tez-tez təmizləyir,
silirəm,
Yad cisim alnımda,
özüm-özümün xoşuna gəlirəm.

*Qaqra, 2013*

# MÜNDƏRİCAT

*Oxumu əyən əydi* ........................................ 3

İnsan mənzərələri ........................................ 4
Bu qızın gözündən məhəbbət yağır ........................ 8
Sabah, sonrakı, daha sonrakı sabah ....................... 8
Araz – vətəndi, vətən ........................................ 11
Hikmətl adamlar, nurlu adamlar ........................... 15
Əmin ol ........................................ 19
Nələr yatır içimdə ........................................ 19
Təzadlar ........................................ 20
Mən yerdəyəm, sən göydə ........................................ 20
Qurtarmır ........................................ 21
Əslində ........................................ 21
Göz yaşlarım ........................................ 23
Ürəyimi oxudun ........................................ 23
İlin ən qısa gecəsi ........................................ 24
Yatır-yatırsan ........................................ 25
Bir qoca qarı ........................................ 26
Səni yenə sevirəm ........................................ 27

Yaxşı adamlar .......................................................... 28
Əli böyüklərin ətəyindədi ..................................... 29
İtirdim itirdiklərimi................................................ 30
Şəhərə sığmayan qoca............................................ 30
Əllərim payız oldu ................................................. 32
Günəş gözümdə yatır ............................................. 33
Sən mənim qədrimi sonra bilərsən......................... 33
Var imiş.................................................................. 34
Təzə ay doğubdu.................................................... 35
Yarımçıq şeir .......................................................... 37
Sənə şeir yazmaq istədim........................................ 37
Ürəyimdə................................................................ 38
Yazı masam ............................................................ 39
Özümü oxuyanda ................................................... 39
Göy üzündən çox ağlayan yoxdu........................... 40
Kölgəmə baxırlar, kölgəmə ................................... 40
Qılıncın kəsir indi.................................................. 41
Bir qadın haqqında ................................................. 42
Belə də ömür olar?.................................................. 43
Adını rəqəmlərlə yazmışdım ................................. 44
Tələbedilənədək...................................................... 45
Səkkizlik ................................................................ 45
Bu yaşıl meşədə ..................................................... 45

Nə deyəsiyəm........................................................46
Bir baxırıq günəşə ................................................47
Adamda neçə üz olar?...........................................48
Yeyəndə çox ye…..................................................49
Qoşma....................................................................50
Göylər durna dəsinindi..........................................50
Yox, mənim təzədən sevən vaxtım döy .................51
Zaman sınağım olur...............................................52
Dərdlərimi burda qoyub getmək istəyirəm uzaqlara ..........................................................................52
Hamı torpağa tərəf ................................................54
Mənim alnım kitabdı.............................................55
Gündüz-gecə..........................................................55
Yarımçıq yazılan şeir.............................................56
Durna dəsi köç eləyir ............................................57
Məndən sonra gələnləri… .....................................57
Günlərin bir günü..................................................58
Ehtiyatsız igid…...................................................59
Məndən kərəm olmaz… ........................................60
Dostlardan qorun ..................................................61
Həyatın hər anı......................................................61
Yaxşılığı üzümə çırpdın ........................................62
Yenisey..................................................................62

Səndən qıraq ........ 64
Oğlansan ........ 64
Qaçış  meydanı ........ 66
Təəssüf ........ 69
Günəş duman səpir ........ 69
Dədə dünya ........ 69
Göy üzündən küsmüşəm ........ 70
Buz kimi sərin su ........ 72
Tənhayam ........ 73
İçim oda qalanır ........ 76
X, U, Z adamlar ........ 78
Dəniz gözümüzdə ........ 81
Qara işıq ........ 83
Bakı-İrəvan qatarı ........ 84
Göy üzünə yazıram ........ 85
Gərməşov ağacı arazda itdi ........ 85
Qatar şüşədən gedir ........ 86
Gözlərim göy üzü ........ 87
Anamın xatirəsinə ........ 88
Eləmi ........ 88
Şəkillərini oxuyacam ........ 89
Günlər necə axıb gedir, ilahi! ........ 90
Bu keçəl həmzələr ........ 91

Cokondadan gözəl olmaq olarmı?.......................... 93

Hələ bəxtin at üstədi ............................................. 96

Özgə baxışlar ........................................................ 96

Xislət ..................................................................... 97

Torpağın üzü soyuqdu............................................ 98

Yayın qor tökən vaxtları ........................................ 99

Yolçu yolda gərək ................................................ 100

Ən sonuncu da… ................................................. 101

Gözlərimin nuru azalıb........................................ 103

Daha gözlərim özümünkü deyil........................... 104

*Müzahim İsmayılzadə*

*«Qara işıq»*

*Bakı, «MBM», 2014, 112 səh.*

Naşir: Afər Fəttahova
Texniki redaktorlar: Ülvi Arif, Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Zərifə Bağırova,
Tərlan Quliyeva, Kifayət Əliyeva

---

Yığılmağa verilmişdir: 02.10.2014
Çapa imzalanmışdır: 21.11.2014
Tiraj 200, şərti çap vərəqi 7
"MBM" nəşriyyatının mətbəəsində
çap olunmuşdur
Bakı, Mətbuat pr., 529
Tel.: (99412) 539-75-06